# MƏNİM ÖLMƏZ İDEALLARIM

**Rusiyanın himayədarlığı altında ermənilər İrandan, Türkiyədən, Suriyadan və digər dövlətlərdən köçürülərək Qarabağda yerləşdirilmişdi.**

"Türkistan " hərbi dairəsinin əhatə etdiyi Türkmənistan, Qazaxstan, Özbəkistan və Qırğızıstan respublikalarında hərbi hərbi xidmətim zamanı, bu respublikaların ilan mələyən səhralarına səpələnmiş saysız-hesabsız soydaşlarımızı görmüşdüm. Onlarla görüçüb söhbət etmişdim. Acı talelərindən xəbər tutmuşdum. Ermənilərin bolşeviklərlə birləşib millətimizin başına gətirdikləri müsibətlərdən mən ancaq orada xəbər tutmuşdum. İndi isə fəallaşan bir cəmiyyətdə hər şeydən halı olan 25 yaşlı yetgin cavan olaraq geridə qala bilməzdim

"Gülüstan" poemasına görə uzun müddət təqib olunan Bəxtiyar müəllim, artıq öz sözünü demişdi. Milli coşqu 1967-ci ildə böyük təntənə ilə qeyd olunan "Bahar Bayramı" səviyyəsinədək gəlib çatdı. Bəxtiyar Vahabzadə, Şıxəli Qurbanov vəs. el fədailərini qorxudub susdura bilmədilər.

Bir gün "Bakı" axşam qəzetinin 4-cü səhifəsində, o qədər də diqqəti cəlb etməyən, "Poeziya yarpaqları" başlığı altında kiçik bir şer nəzərimi cəlb etdi. Müəllifi Bəxtiyar müəllim idi. Şeirin bir bəndi indi də yadımdadır:

**Mən qədim bir mahnıyam**
**Xallarım əlvan-əlvan.**
**Musiqim Qarabağdır,**
**Sözlərimsə Naxçıvan.**

Şeirin məzmunu belə idi ki, mənim heç kəsin torpağında gözüm yoxdur və torpağımın bir qarışını da kimsəyə verməyərəm. Düşündürücü şer idi. Mən özlüyümdə fikirləşdim ki, bu şer əbəs yerə yazılmayıb, bunun arxasında nə isə bir məna var. Xeyli müddətdən sonra bəzi süzüntülərdən məlum olur ki, demə ermənilər o vaxtkı Azərbaycan rəhbərliyinin zəifliyindən istifadə edərək, Dağlıq Qarabağın Ermənista-

**Uzaq səfərdəyəm, bilinmir ancaq**
**Sonuncu düşərgəm axır mənzilim...**

**...Sevdim, sevilmədim, alçaldım ancaq**
**Bu eşqin özünə mən, mən olmuşam.**
**Sən bir ürəkdəki dönüklüyə bax**
**Sevdiyim insana düşmən olmuşam.**

**Məni vurmaq üçün işə baxın ki,**
**Sevgim dost əlində qılınc olubdur.**
**Hamının başını ucaidan sevgi**
**Mənimsə başıma qaxınc olubdur.**

Şair rejimin sərtliyindən fikrini başqa cür ifadə edə bilməzdi. O, izlənilirdi. Onu izləyənlər vardı. Bu şer şairin bütün həyatıdır. Vətəninin səadəti, torpaqlarının bütövlüyü uğrunda mübarizə aparan şair, son mənzilinin harada bitdiyini bilmədən cihada çıxmışdı. Əfsuslar ki, bu yolda dönüklük edən, vətən sevgisinə görə kimlərəsə xoş gəlmək üçün şairə qılınc qaldırmaq istəyən "dostları" da olmuşdur.

Bəxtiyar müəllim Urmiya gölündən Dərbəndə qədər uzanan tarixi torpaqlarımızın bütövlüyü uğrunda ardıcıl mübarizə aparan bir vətəndaş idi. Lakin bu yolda ona həmrəy olanlar çox az idi.

**Özüm quzeyliyəm arzum güneyli,**
**Ona çatammadım çalışdım xeyli.**

- deyir. Şair xoşbəxtliyini millətinin xoşbəxtliyində görür, hətta valideynlərinin ona verdikləri addan narazılıq edir. Bu xüsusda şair belə yazır:

**Adımı dəyişin bilinsin yolum**
**Məgər bəxtiyaram, Bəxtiyar olum?**
**Sinəmə çəkilən bir belə dağla**
**Mən qara bəxtimə necə yar olum?**
**Millətim bədbəxtsə mən hansı haqla,**
**Hansı ürəklə Bəxtiyar olum?**

Tələbəlik dövründə Bəxtiyar müəllimlə keçirilən əksər görüşlərin iştirakçısı olmuşam. Onun çoxlu bəxtiyarsevənlər tərəfindən necə alqışlarla qarşı-



Türmələrin və cəzaçəkmə yerlərinin cinnayətkarlar yuvasından çox intriqalar, çəkişmələr, qisas və intiqamalma mərkəzlərinə çevrildiyi bir vaxtda, mən də o dünyanın sakinlərindən biri olmuşdum. Məhbusların xahişi ilə Bəxtiyar Vahabzadəni görüşə dəvət etmişdik. Gələndən gedənədək qara paltarlı məhbusların qara mühitli günlərinə baxıb ağlayan şair, tutulduğundan danışa bilmədi. Onun əvəzinə o, bu danışdı. Sonda şair güclə bu sözləri deyə bildi: "Kaş, rəhbər vəzifədə çalışan səlahiyyət sahibləri, səhərlər işə gedərkən yollarını qəbristanlıqlar yanından salaydılar. Və özlərinin də nə vaxtsa bu sükunət dünyasına qovuşacaqları günü yada salaydılar. Axşamlar işdən qayıdarkən boyunlarına sırmaşan balalarını əzizləyəndə isə, zindanda olanları düşünəydilər"

Bəxtiyar müəllim bir söz də dedi: "Əgər bir deputat kimi bilsəm ki, mənim hər gəliş-gedişimdən sonra sizin cəza müddətinizdən bir gün çıxılacaq, vallah bir gündə neçə dəfə gəlib - gedərdim". Ruhun şad olsun, Böyük şair!

***

On səkkizinci əsrdən üzü bu yana Azərbaycan torpaqları hesabına özlərinə "böyük Ermənistan" yaratmaq is-

**Günəş kimi!**
**Cahan kimi!**
**Çəkil!**
**Çəkil ey qəsbkar!**
**Mən bu əsrin gur səsiyəm,**
**Gərək deyil sısqa bulaq,**
**Mən ümmanlar təşnəsiyəm!**

Şairin bu hayqırtısından qorxuya düşən, əsim-əsim əsən başqa bir qələm sahibi isə mitinqə yığışanlara:" Dağılışın! Dağılmasq bizi qıracaqlar" deyə tövsiyə edirdi. Təbriz kimi minlərlə oğullarımızın qanı bahasına qovuşduğumuz müstəqililkdən hamıdan çox bəhrələnən bu şəxs, iki gündən bir, dizi beldən yuxarı olan, ərlərini alt paltarları kimi tez-tez dəyişən "xanımlara" mahnılar yazmaqla, kütləni "Yanıq Kərəmə" oynatmaqla işini bitmiş hesab etdi. Ulutürk isə belələrini qamçılayaraq belə yazırdı:

**Tutaq ki, var istedadın,**
**İlhamın da,**
**Biliyin də.**
**Rədd ol! İtil gözümdən**
**Əgər yoxsa Vətən eşqi**
**Sümüyündə, iliyində.**
**Başqa bir şeirində isə belə yazırdı:**
**Vətəndaş olmasa boş şeydir Vətən!**
**Beş günlük on günlük quzey qarıdır.**
**Vətən məfhumunun özəyindəki**
**Vətənin vüqarlı oğullarıdır.**

Xəlil Rza Ulutürk onu sevənlərin qəlbində əbədi yuva qurubdur. O, buna öz torpağına, millətinə bağlılığı ilə, nəcibliyi ilə nail olubdur. Bu meyarlar Xəlil Rza həyatının lakmus ğöstəriciləridir. Bunu, şair özü daha gözəl qələmə alıb:

**Kimsə cibə giribdir, mən ürəyə girmişəm.**
**Kimsə pul, sərvət görüb, mən məhəbbət görmüşəm.**
**Mən könül güldürmüşəm, sevincindən ağlayıb,**
**İslaq kipriklərindən mirvarilər dərmişəm.**

**(ardı növbəti sayımızda)**

***Vaqif Məmmədov***